# İNSAN HƏRƏKƏTLƏRİNİ TƏQLİD ETMƏK



BİRGƏ VƏ SAĞLAM İCTİMAİ BİRLİYİ

Azercell


Birgə və
Sağlam İB
“Autizm portalı”
BİRGƏ VƏ SAĞLAM
İCTİMAİ BİRLİYİ
Azercell

# BƏNZƏR ƏŞYALARI EYNİLƏŞDİRMƏ VƏ QRUPLAŞDIRMA

Təməl eyniləşdirmə bacarıqları eyni və eyni olmayan əşyaları bir araya gətirilməsidir. Qruplaşdırma bacarıqları isə görünüş bənzərliyindən əlavə ona aid edilən müəyyən xüsusiyyətlər çərçivəsində əşyaların bir araya gətirilməsini əhatə edir. Aid edilən xüsusiyyətlərin bəziləri əşyaların funksiyalarıyla əlaqəli ola biləcəyi kimi (misal üçün yediklərimiz, içdiklərimiz, evin içində istifadə etdiklərimiz, geyindiklərimiz) varlıqların aid olduqları siniflərlə də əlaqəli ola bilir (misal üçün heyvanlar, bitkilər, meyvələr, səbzələr, metal əşyalar, parça əşyalar).

Eyniləşdirmə və qruplaşdırma bacarıqlarını öyrətməyə başlamadan öncə özümüzə bu bacarıqlara sahib olmağın öyrənmə baxımından nə kimi təsirləri olacağını düşünək. Bu sualı cavablamaq üçün də uşaqların və yetkinlərin uyğunlaşdırma və sinifləndirmə bacarıqlarını zehni fəaliyyət və öyrənmə təcrübələri əsnasında necə istifadə olunmasını düşünə bilərik. Bir neçə nümunə əsasında baxaq.

Eyniləşdirmə və qruplaşdırma bacarıqları daha çətin və mürəkkəb başqa bir çox bacarıq və davranışı öyrənərkən fərqində olaraq, ya da olmayaraq istifadə etdiyimiz bacarıqlardır. Misal olaraq:

•Qavramları öyrənə bilmək üçün əşyaları, hadisələri və qarşılaşdığımız fərqli halları müəyyən xüsusiyyətlər çərçivəsində qruplaşdırır və onlara ad veririk. Rəngləri, böyük-kiçik, uzun-qısa, çirkli-təmiz, isti-soyuq kimi qarvamları, əşyaların çoxluq ifadə edən sayları yalnız onlarla əlaqəli zehni sinifləndirmə fəaliyyətlərinin ardından öyrənə bilərik. Qavramları gündəlik həyatımızda necə istifadə edəcəyimizə gəldikdə isə hər birimiz saysız-hesabsız nümunə göstərə bilərik.

•Dil bacarıqlarını öyrənərkən eyniləşdirmə bacarıqlarından yararlanırıq. Misal üçün, danışarkən istifadə etdiyimiz sözlər əslində onlarla uyğunlaşmış olan əşyaları və hərəkətləri ifadə edir. Buna görə də eyniləşdirmə bacarığı sözlü ünsiyyət davranışlarının öyrənilə bilməsi üçün istifadə olunan çox önəmli bir təməl daşıdır.

•Oxuma-yazma bacarıqlarını öyrənərkən də eyniləşdirmə bacarıqlarını istifadə edirik. Çünki hansı hərflərə  hansı səslərin qarşılığı olduğunu bilmək üçün uyğunlaşdırma etmək gərəkdir.



Diqqəti yönəltmə və fərqli stimulları bir-birindən ayırd etmək bacarığında ümumiyyətlə məhdudiyyətlər göstərən autizmli uşaqlarda da başqa bir çox bacarığı ya da qavramı öyrənə bilmək üçün eyniləşdirmə və qruplaşdırma etməyə ehtiyac duyurlar. Bu səbəbdən autizmli uşaqlara müəyyən əşyaları uyğunlaşdırmağı və sinifləndirməyi öyrətmək daha mənti̇qli bir addım olaraq qiymətləndirilə bilər. Bundan başqa, eyniləşdirmə və qruplaşdırma bacarıqlarının tədrisi əlaqəli olaraq asandır. Çünki burada bəhs edildiyi kimi eyniləşdirmə və qruplaşdırma bacarıqlarının tədrisi autizmli uşaqların çoxluqla işləməkdə çox daha uğurlu olduqları vizual stimulları istifadə etmək gərəkdir. Buna görə də uşaqlar müəyyən bacarıqları qazandıqca və uğurlu reaksiyalar sərgiləyərək mükafatlandırıldıqca tədrisdən zövq almağa da başlayırlar. Bu vəziyyət uşağın tədris müddətinə daha asan adaptasiya olmasını təmin etdiyi kimi davranış problemlərinin də ortadan qalxmasına kömək edir. Amma hər zaman olduğu kimi tədrisdə müşahidə oluna biləcək fərdi fərqliliklərə qarşı hazır olmaq gərəkdir.

Eyniləşdirmə bacarıqlarının tədrisinə təməl təqlid bacarıqlarının tədrisiylə eyni zamanda olaraq başlana biləcəyi kimi uşağın xüsusiyyətlərinə asılıolaraq ilk təqlid və ya eyniləşdirilmədən başlamaq olar. Eyniləşdirmə bacarıqlarının hamısında meyarı qarşılayan uşaqlarda sinifləndirmə bacarıqlarının tədrisinə keçmək olar. Eyniləşdirmədə irəliləyib, lakin qruplaşdırmada çətinlik çəkən uşaqlarda isə qruplaşdırma bacarıqlarının tədrisi mövzusunda israr etməyin. Bir neçə həftəlik fasilə verin və bu arada digər bacarıqlar üzərində çalışıb daha sonra qruplaşdırma bacarıqlarına geri dönmək tövsiyyə olunur.

Bu proqramda ən təməl səviyyədə eyniləşdirmə bacarığı qazandırmaq hədəflənməlidir. Bu məqsədlə öncə əşyaları, daha sonra isə rəsmləri eyniləşdirmə üzərində durmaq lazımdır. Qruplaşdırma bacarıqları tədrisi çərçivəsində isə öncə qrupa görə eyniləşdirmə daha sonra isə ayırma öyrədilir.

# DƏYƏRLƏNDİRMƏK

Bu hissədə övladınızın bənzər əşyaları eyniləşdirmə bacarığını və ya digər vizial performans bacarıqlarını dəyərləndirirsiniz. Bir çox autizmli uşaq vizual öyrənəndir, buna görə də eyniləşdirmə etmənin onlarda getdikcə mükəmməlləşəcəkləri və əylənərək bitirəcəkləri bir bacarıq olacağını deyə bilərik. Eyniləşdirmə uşaq bir neçə əşya üçün istək bildirdikdən dərhal sonra təqdim edilir, amma uşaq əgər eyniləşdirmə və pazl fəaliyyətlərini sevirsə, tədris mühiti mükafatla eyniləşdirmə əsasında yəni daha öncədən də başladıla bilər. Pazl vizual öyrənməsi güclü olan uşaqlara öyrədilən ilk istək bildirimlərindən biridir.

Eyniləşdirmə bacarıqları üçün vəsait toplamağınız gərəkdir. Evinizdən bir-biriylə tam eyni olan əşyaları toplamalısınız. Bunlar tam eyni plastik çəngəllər, maşınlar, sadə karandaşlar, plastik boşqablar ola bilər. Əşyaların bir-biriylə tam eyni olduğundan əmin olmağınız yetərlidir. Ayrıca tam eyni olmayan, amma  bir-birinə bənzər əşyalara da ehtiyacınız olacaq: üç fərqli maşın, üç fərqli ayaqqabı, fərqli materialdan olan qaşıqlar (misal, birmetal və bir taxta qaşıq).
Tam eyni əşyaların bir dənəsini bir qutuya, digər qutuya isə eyni olmayanları qoyun. Ayrıca istifadə etmək üçün övladınıza hazırlayacağınız şəkilləri bir neçə böyük qutuda saxlaya bilərsiniz. Eyniləşdirmə bacarıqlarını dəyərləndirmək məqsədiylə yerə, ya da masaya üç-dörd əşya qoyun (buna üç və ya dörd seçimli deyilir). Əşyaların arasında biraz boşluq olmalıdır ki, uşaq ona tam bənzəyən əşyanı onun yanına qoya bilsin. Uşağın əlinə fincanı verin və “eyniləşdir” deyin.
Başlanğıcda kiçik bir ipucu verməyinizdə problem yoxdur, hətta uşaq beləliklə, bu testdə özündən nə gözlənildiyini anlayacaqdır. Əgər uşaq dörd və ya beş seçimdən olan əşyaların böyük bir hissəsini eyniləşdirsə, eyni olmayan əşyalarınız olan qutudan bir  neçə əşyanı seçimlərinizin arasına qoymağa başlaya  bilərsiniz. Amma uşağınız masaya eyniləşdirmə üçün qoyduğunuz oyuncaqlarla oynamağa başlasa və ya onları vurmağa, ya da masadan tutub qaldırmağa başlasa, o halda eyniləşdirmə bacarığı üçün uşağınızın ortaya qoyduğu başlanğıc nöqtəniz (başlanma nöqtəsi) bu deməkdir.  Eyni addımları şəkilləri eyniləşdirən zaman da istifadə edə bilərsiniz. Şəkil eyniləşdirmədə, uşağın fəaliyyətini ən qısa yoldan yaratmaq üçün bir-biriylə tam eyni, iki qutu şəkil kartı ala bilərsiniz. Şəkilli kartlar həm eyniləşdirmə proqramlarında, həm də başqa proqramlarda istifadə oluna bildiyindən əlinizin altında olması məqsədə uyğundur.

Ayrıca vəsaitləri özünüz də google-da axtarıb istədiyiniz şəkildən iki eyni surət çıxara bilərsiniz. Xüsusilə anlaşılmağı çətin əşyaları tapmaqda bu üsul çox işə yarayır. Əşyaları şəkillə uyğunlaşdırmada bu üsul çox səmərəlidir. Övladınız bir-birinə həm bənzəyən, həm də bənzəməyən əşyaları və şəkilləri eyniləşdirmədə mükəmməlləşdikdən sonra növbəti mərhələdə uşağın bir-birinə bənzəməyən şəkilləri seçmək, qruplaşdırmaq qabiliyyətinin dəyərləndirilməsidir. Bu dəyərləndirmədə bir-birindən fərqli alma şəkillərini və bir-birindən fərqli it şəkillərini masanın üzərinə qoyub uşaqdan itləri seçməsini istəyəcəksiniz. Daha qarışıq seçimlər üzərində işləyə bilərsiniz, uşaq uğur qazandıqca ondan meyvələrlə heyvanları ayırmasını istəyə bilərsiniz.

Digər vizual performans bacarıqları pazl, mozaika tamamla şəklindədir və indi bütün sahələrdə uşağı dəyərləndirdiyinizə görə sıra  mövcud bacarıqların üzərinə inşa edəcəyimiz formada uşağın öyrənməsinə dəstək olmaqdadır.

# TƏDRİS

Bu sahədə başlanğıc bacarıqları, pazl tamamlama bacarıqları ilə bənzər əşyaları və şəkilləri eyniləşdirmə bacarıqlarını əhatə edir.

Bənzər əşyalar qutunuzu və bənzər şəkil kartlarından ikili dəstinizə keçmək zamanı gəldi. Bəzi uşaqlar bu bacarığı ən yaxşı, mükafat xüsusiyyəti daşıyan əşyaların şəklini və ya özünü istifadə etdiyiniz zaman öyrənir.

Eyniləşdirmə bacarıqlarını dəyərləndirərkən "uyğunlaşdır" və ya "eynisini yanına qoy" deməməlisiniz və ya tək söz söyləməməli, uşağın əlinə hər dəfə bir kart verməlisiniz.
Bu bacarığı öyrətdiyimiz zaman mütləq əşyanının adını və işarət diliylə "eyniləşdir" və ya "eyniləşdir" demək yerinə, ya da həm eyniləşdir deyib, həm də işarə verərəkeyniləşdir komandasını verərək istifadə edin, bu şəkildə çalışmanın daha çox faydalı olacağını təcrübə etmişik. Bu uşağın proqramlamasında dilin və sadə sözlərin öyrənilməsinə kömək edir. Uşaqlar kəlimələri nə qədər çox eşitsələr, o qədər əşya tanımaq bacarıqları artar və əşyaların adlarını ayırd etməyə başlamaqlarını mümkün hala gətirir. Hətta övladınız o sözü eyniləşdirmə fəaliyyətində o qədər intensiv eyniləşdirmə edir ki, təkrar etməyə belə başlaya bilər.
Bu bacarığı öyrətməyin nəyə bənzədiyini aşağıdakı nümunədə oxuya bilərsiniz. Həmzə masadakı 3 əşyayla çalışır:

Ana: Masaya qaşıq, plastik oyuncaq maşın və yumşaq oyuncaq pişik qoyur. Sonra Həmzənin əlinə masadakıyla eyni başqa bir plastik oyuncaq maşın verir və "Maşın" deyir, Həmzə öz maşınını masadakı maşının yanına qoyması üçün jestdən istifadə edir.
Həmzə: Oyuncaq maşını digər oyuncaq maşının yanına qoyur.
Ana: "Doğrudur" deyib sonraoyuncaq maşını təkrar verir, "Eynisini tap" deyir.
Həmzə: Maşını ipucu olmadan eyniləşdirir.
Ana: Həmzəyə köpük üfürür.

Eyniləşdirmə bacarıqlarını öyrədərkən, uşağın işlədiyi əşyalarla oynamasına icazə verməyin. Əgər Həmzənin əlinə aldığı oyuncaq maşınla biraz oynamadan onu digər oyuncağın yanına qoymayacağını düşünürsünüzsə, o zaman başqa əşyalar seçməli və ya fiqurların yerinə şəkillərdən istifadə etməlisiniz. Eyni üsul həm şəkil eyniləşdirməsində, həm də əşyalarda istifadə oluna bilər. Həmzə şəkilləri şəkillərlə, əşyaları əşyalarla eyniləşdirmədə ustalaşan kimi, əşyaları qarışdıraraq şəkilləri əşyalarla eyniləşdirməsini təmin etməlisiniz. Hər hansı bir şəkildə proqramınızda şəkilli fəaliyyət cədvəlləri istifadə etməyi planlayırsınızsa, bu mövzu sizin üçün xüsusi ilə çox önəmlidir.

Pazl bacarıqları, proqramınızın əyləncəli hissəsi ola bilər, əks halda autizmmli uşaqların çoxunun vizual tərəfləri çox güclüdür və pazllar bu anlamda təsirli bir mükafat rolu oynayacaqdır. Əgər uşağınız pazl sevmirsə, yenə də pazlları güclü mükafatlarla diqqətli bir formada eynilәşdirsəniz bu mövzuda çalışmağa davam edə bilərsiniz. Misal üçün, televizoru açıb, uşağa bir pazl hissəsini doğru yerləşdirməsini təmin edə bilsəniz, bunu etdiyi zaman da əlavə mükafat verə bilərsiniz. Geriyə zəncirləmə bu mövzuda olduqca təsirli bir çıxış yoludur. Nümunə versək, pazlı sadəcə "tək" parçası əskik qalacaq şəkildə uşağınızın önünə qoyub onu tamamladırsınız. Özü tək parçanı yerinə qoya bildikdən sonra bu dəfə iki parçanı əskildə bilərsiniz. Pazl oyunu çalışma mərhələsinə gəldikdə kiçik yaş qrupu üçün hazırlanmış üstündə ev əşyaları və ya ferma heyvanları olan pazllar alın. Pazlın böyük  parçasını əlinizə alıb "quş, quş" deyə bilərsiniz. Ardından övladınız quşu doğru yerə sizin yardımızla və ya yardımınız olmadan yerləşdirəcəkdir.

Həmzəyə ev heyvanları pazlını tamamlamağı öyrədərkən sadəcə iti yerindən götürüb əskik parça halına gətirsək, nümunə aşağıdakı kimi olacaqdır:
Ana: Üzərində it şəkli olan parçanı verir və "it, it, it" deyir, eyni anda uşağın parçanı düzgün yerləşdirməsi üçün ona ipucu verir.
Həmzə: İpucu yardımıyla iti yerinə yerləşdirir.
Ana:  İt şəkli olan parçanı yerindən qaldırır və uşağa geri verərkən "Afərin...it, it" deyir.
Həmzə: İpucu olmadan it olan parçanı yerinə yerləşdirir.

Tədrisin başında alıcı dil, təqlid və vizual performans bacarıqları inkişaf etdirmək, övladınızın davranışları üzərində müsbət bir təsir yaradar. Bu bacarıqların üzərində davamlı çalışsanız övladınızın söz dinlməsini (istəklərinizə reaskiya verməsini) artar, sizin ipucu verə bilmək və verdiyiniz ipucunu seyrəkləşdirmək bacarıqlarınızı inkişaf etdirər və tez-tez qarşılaşdığınız kimi uşağın dil bacarıqlarını daha yaxşı bir səviyyəyə çıxarar.

Bir sonrakı hissədə fərqli sözlü bacarıqları necə öyrədəcəyiniz tək-tək göstəriləcəkdir. Gördüyünüz kimi hər bir baxarıq üçün müəyyən olunmuş təməl üsullar bu hissədə göstərilənlərlə eynidir. Amma tək bir fərq  var, o fərq də ipucu verməkdir. Uşağı danışmağa məcbur etməyəcəyinizə görə ipucu verə biləcəyiniz bacarıqlar üzərində çalışmağınız önəmlidir. Bununla övladınız uğur əldə edəcəkdir, çünki bu müddət ərzində istədiyi motivasiyaedicini necə əldə edəcəyini öyrənmiş olacaq. Bu da onu daha çətin bacarıqlar əsnasında sözə qulaq asmağa və tabe olmağa ürəklənəcəkdir.

Bundan başqa, bu bacarıqlar üzərində çalışmaq sizi daha yaxşı bir müəllim edir. İpucu vermək və ipucunu seyrəkləşdirmək bacarıqlarınız üzərində axıcılıq qazanana qədər çalışsanız, özünüzdəki uğuru görə bilərsiniz. İrəlidə özünüzə kiçik bir mükafat vermək ehtiyacı hiss etsəniz, bu hissəni təkrar oxumaqdan çəkinməyin.